**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SEDAT BAYTAK HASAN OĞLU**

# AZƏRBAYCANDA SƏNAYE MƏHSULLARININ KEYFİYYƏTİNİN İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**İxtisas**: **5311.01 -** «Müəssisələrin təşkili və idarə olunması»

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2016**

Dissertasiya işi Qafqaz Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə elmlər doktoru, professor
**Tərbiz Nəsib oğlu Əliyev**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, professor
**Müşfiq Cəmil oğlu Atakişiyev**

iqtisad üzrə fəlsəfə doktoru
**Kamran Nurəddin oğlu Abdullayev**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət İqtisad Universitetinin "Müəssisənin iqtisadiyyatı" kafedrası**

Dissertasiya işinin müdafiəsi 11 mart 2016-cı ildə saat $14^{00}$-da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən D.01.181 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ. 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat 9 fevral 2016-cı ildə göndərilmişdir.

D.01.181 Dissertasiya Şurasının elmi katibi,
iqtisad üzrə fəlsəfə doktoru, dosent F.Q.Musayeva

## İşin ümumi xarakteristikası

**Mövzunun aktuallığı.** Azərbaycanın müstəqilliyini bərpa etdikdən qısa müddət keçməsinə baxmayaraq, o, artıq dünyanın dinamik iqtisadi inkişafa malik dövlətlərindən birinə çevrilmiş, özünəməxsus inkişaf modeli ilə beynəlxalq qurumların, aparıcı maliyyə institutlarının diqqət mərkəzindədir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və sənayeləşmə siyasəti uğurla həyata keçirilir.

Dünya İqtisadi Forumu tərəfindən 2013-2014-ci illər üçün hazırlanmış "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinə görə 38-ci yerdədir. MDB ölkələri arasında lider mövqeyini bir daha təsdiqləmişdir.

Son bir neçə il ərzində Azərbaycanda sənaye məhsulunun keyfiyyətinin yaxşılaşdırılması və idarə edilməsi üzrə bir sıra önəmli hüquqi və normativ-texniki sənədlər qəbul edilmiş, bir çox ölkələrlə standartlaşdırma və metrologiya üzrə əməkdaşlıq sazişləri imzalanmış, ISO, EN və digər yönümlü 100-dən çox regional standartlar təsdiq edilmiş və iqtisadi fəaliyyət sahələrində həyata keçirilir. Lakin əldə edilən uğurlara baxmayaraq ölkənin emal sənayesi müəssisələrinin texniki-texnoloji vəziyyəti, innovasiya və diversifikasiya fəaliyyətinin zəif həyata keçirilməsi orada yüksək keyfiyyətli və ixrac yönümlü məhsul istehsal etməyə imkan vermir. Artıq uzun illərdir ki, Azərbaycanın ixrac məhsullarının orta hesabla 94 %-i mineral yanacaq, neft və neft-məhsulları təşkil edir. Emal sənayesinin digər sahələrinin payına düşən 6% məhsulların əksəriyyətini yeyinti məhsulları və xammal təşkil edir.

2015-ci ilin əvvəlinə ölkədə istehsalçı müəssisələrin anbarlarında hazır məhsul qalığı 355,1 milyon manat təşkil etmişdir ki, onun da 275,9 milyon manat və yaxud 77,7%-i emal sənayesinin payına düşür. Həmin məhsulların satışını ləngidən başlıca səbəb onların keyfiyyətinin beynəlxalq standartlara cavab verməməsidir. Ölkənin emal sənayesinin aparıcı sahələrindən hesab edilən kimya, neft emalı, maşınqayırma, toxuculuq və digər sahələrdə məhsul keyfiyyətinin səviyyəsi texniki şərtlər (TŞ) və QOST-la tənzimlənir. Milli standartlar hələlik respublika və sahə əhəmiyyətlidir. Emal sənayesi müəssisələrinin istehsal sisteminin layihələndirilməsində keyfiyyət menecmentinin bir çox prinsipləri, forma və metodlarının tələblərinə riayət olunmur. Ölkənin emal müəssisələrində məhsulun KİE üzrə səlahiyyətli idarə orqanı yaradılmamış və bu sahədə pərakəndəliyə yol verilir. Təcrübədə istifadə edilən normallaşdırıcı sənədlərin yeniləşməsinə ehtiyac duyulur; məhsulun keyfiyyətinin

yaxşılaşdırılması, zay məhsulun azaldılması, xammal və enerji daşıyıcılarından qənaətlə istifadə olunması üzrə işlək stimullaşdırıcı mexanizm işlənilməmişdir, məhsulların istehsalı, satışı, qalığı, hərəkəti üzrə yekdil informasiya məlumat bazası yaranmamışdır; elmi tədqiqatların, yaradıcı təşəbbüslərin nəticələri istehsalatda ləng həyata keçirilir.

2006-cı ildən başlayaraq, ölkədə ixrac edilən məhsulların pul ifadəsi ilə dəyəri idxalın həcmini xeyli dərəcədə üstələsə də, idxal olunan bütün növ məhsulların sayı ixrac olunanların sayından bir neçə dəfə çoxdur. Respublikada istehsal edilən emal sənayesi məhsullarının böyük əksəriyyəti beynəlxalq standartların tələblərinə cavab vermir. Deməli, ölkə iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliyinə nail olmaq üçün onun normativ-texniki bazası əsaslı şəkildə yenidən qurulmalı və bu zaman beynəlxalq standartların tətbiqinə üstünlük verilməlidir. Buna nail olmaq üçün sənaye məhsulunun keyfiyyətinin idarə edilməsi üzrə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin müvafiq iş təcrübələrinin öyrənilib Azərbaycanda tətbiqinə, zəruri ehtiyac duyulur. Bütün bu faktlar emal məhsullarının keyfiyyətinin idarə edilməsinin təşkilati-iqtisadi aspektlərini tədqiq edərək ilk növbədə nəzəri-metodoloji xarakterli tövsiyələrin işlənilməsi zərurətini yaratmışdır. Təqdim edilən dissertasiya işinin mövzusunun aktuallığı məhz həmin zərurətdən irəli gəlmişdir.

**Problemin öyrənilmə səviyyəsi.** Bazar iqtisadiyyatının aktual sosial-iqtisadi problemləri bu sahədə dövlətin iqtisadi siyasəti, emal sənayesi məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, innovasiya və restrukturizasiya məsələləri, emal məhsulları bazarında marketinqin təşkili, istehsalın inkişafının stimullaşdırılması, iqtisadi artımın keyfiyyət məsələləri, yeni məhsulun mənimsənilməsi üzrə investisiya layihələrinin işlənilməsinin nəzəri-metodoloji aspektləri Azərbaycan alimlərindən İ.H.Alıyev, A.B.Abbasov. M.C.Atakişiyev, Ş.Ə.Axundov, Ə.İ.Bayramov, S.M.Qasımov, T.N.Əliyev, R.M.Cəbiyev, Q.S.Səfərov, R.M.Əliyev, M.A.Məmmədov, A.Ş.Şəkərəliyev, A.H.Səmədov, F.Ə.Məmmədov, Q.S.Süleymanov, R.T.Həsənov, K.A.Şahbazov, G.Z.Yüzbaşiyeva, R.P.Sultanova və başqalarının əsərlərində öz əksini tapmışdır.

MDB məkanında məhsulun keyfiyyətinin idarə edilməsi məsələləri O.V.Aristov, İ.T.Balabanov, D.V.Qordiyenko, A.V.Qliçov, V.Y.Kotelnikov, Q.D.Krılov, L.İ.Sokina, R.A.Fatxutdinov və başqaları tərəfindən geniş tədqiq edilmişdir. Türkiyədə və uzaq xarici ölkələrdə sənaye məhsulunun keyfiyyətinin texniki-texnoloji, təşkilati, hüquqi və sosial-iqtisadi aspektləri İ. Cemal, E.Yılmaz, U.Engin, Ş.Öz-Alp, A.Yıldırım, E.İsmayıl, E.Erol, W.E.Deminq, B.O.Berqman, T.Conti,

Q.Xamel, J.Barrow və başqalarının əsərlərində öyrənilmiş, önəmli tövsiyələr irəli sürülmüşdür.

Yuxarıda adları çəkilən Azərbaycanın, Türkiyənin və digər xarici ölkələrin alimlərinin əsərlərinin elmi və praktiki əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, bu vaxtadək Azərbaycanda emal sənayesi məhsullarının keyfiyyətinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi məsələləri kompleks şəklində tədqiq edilməmiş, mövcud ehtiyat imkanları tam şəkildə aşkar olunmamışdır. Məhz bu səbəbdən dissertasiya işinin mövzusu seçilmiş, tədqiqatın məqsədi və vəzifələri müəyyən edilmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi emal sənayesi məhsullarının keyfiyyətinin idarə edilməsinin təşkilati, iqtisadi və sosial aspektlərinin nəzəri-metodoloji əsaslarını tədqiq etmək Azərbaycanın müəssisələrində problemin həllinin mövcud vəziyyətini kompleks şəkildə təhlil edib qiymətləndirmək, ehtiyat imkanlarını aşkara çıxarmaq və onlardan səmərəli istifadə edilməsi üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işləyib hazırlamaqdan ibarətdir. Formalaşan məqsədə çatmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr qoyulmuş və məntiqi ardıcıllıqla həll edilmişdir:

- ✓ Azərbaycanın, Türkiyənin və digər xarici ölkələrin alimlərinin mövzuya dair əsərlərinin öyrənilib ümumiləşdirilməsi əsasında sənaye məhsullunun keyfiyyətinin mahiyyəti, onu xarakterizə edən amillər, keyfiyyətin idarə edilməsinin nəzəri-metodoloji aspektləri, bu sahədə mövcud olan beynəlxalq təcrübənin şərh edilməsi;
- ✓ Sənaye məhsullarının keyfiyyətinin normativ-hüquqi və texniki təminatının mövcud vəziyyətinin qiymətləndirilməsi;
- ✓ Çoxillik statistik, ilkin uçot və hesabat sənədlərinin məlumatları əsasında emal sənayesi müəssisələrində texniki-texnoloji səviyyənin məhsulun keyfiyyətinə təsirinin təhlil edilməsi, məhsulların istehsalı və satışının qiymətləndirilməsi əsasında ehtiyat imkanlarının aşkara çıxarılması;
- ✓ Keyfiyyətin idarə edilməsi metodlarının təkmilləşdirilməsi yollarının müəyyən edilməsi;
- ✓ Emal sənayesi məhsullarının idarə edilməsi üzrə inteqrasiya olunan sistemin layihələndirilməsi və mövcud mexanizmin təkmilləşdirilməsi üzrə təklif və tövsiyələr işləyib hazırlamaq.

**Tədqiqat obyektini** Azərbaycanın emal sənayesi məhsulları istehsal edən müştərək müəssisələr, "Azneftkimyamaş" ASC və onun törəmə cəmiyyətləri təşkil edir.

**Tədqiqatın predmetini** Azərbaycanın emal sənayesi məhsullarının keyfiyyətinin idarə edilməsinin təşkilati, sosial-iqtisadi aspektləri və onun mexanizminin təkmilləşdirilməsi məsələləri təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsaslarını** mövzu ilə əlaqədar Azərbaycan Respublikasının qanunları, ölkə prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, İqtisadi İnkişaf, Energetika Nazirliklərinin; Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin qərarları, Azərbaycan Respublikasının müvafiq Dövlət Proqramları, digər direktiv və normativ sənədlər, mövzuya dair respublikanın və xarici ölkə alimlərinin tədqiqatlarının nəticələri təşkil edir.

Tədqiqat zamanı iqtisadi-statistik təhlil, struktur-funksional, müqayisə, məqsədli-sistemli yanaşma, sosioloji sorğu və digər metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları, “Azneftkimyamaş” ASC-nin və onun törəmə ASC-nin ilkin uçot və hesabat sənədlərinin məlumatları, Azərbaycanda istehsal olunan sənaye məhsullarının kataloqu, Azərbaycanda fəaliyyət göstərən holdinq və müştərək müəssisələrin məhsulun keyfiyyəti üzrə hesabatları, Böyük İqtisadi Ensiklopediyanın məlumatları, mövzu ilə əlaqədar dövrü mətbuatda dərc olunmuş materiallar, beynəlxalq və respublika miqyaslı elmi-praktiki konfransların materialları, müəllif tərəfindən istehsalçı müəssisələrdə aparılmış anket sorğusunun nəticələri təşkil edir.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- Sənaye məhsulunun keyfiyyətinin kompleks şəkildə idarə edilməsi məsələlərinin təşkilati, iqtisadi-sosial və metodoloji aspektləri beynəlxalq təcrübə əsasında araşdırılmış və sistemləşdirilmişdir;
- Sənaye məhsulunun keyfiyyətinin idarə edilməsinin təşkili və yeni konsepsiyasının prinsipial sxemləri işlənilmişdir;
- Emal sənayesi məhsulunun keyfiyyət əlamətləri və göstəricilərinin təsnifatını özündə əks etdirən təkmilləşən sxem verilmişdir;
- Yeni növ sənaye məhsulunun işlənilməsi və istehsalı üçün üzvi əlaqədə olan mərhələlərin təsnifatı verilmişdir;
- Keyfiyyətə statistik nəzarətin tətbiqi mərhələləri, tənzimləmə prosesinin prinsipial sxemi, texniki nəzarət xidməti bölməsinin idarəetmə səviyyələri üzrə strukturu təklif olunmuşdur;
- Azərbaycanın emal sənayesi müəssisələrinin strateji inkişaf səviyyələri, onların restrukturizasiyasının vacibliyini müəyyən edən iqtisadi və təşkilati-texniki amillərin xarakteristikası, biznes fəaliyyətinin dayanıqlı

inkişaf, eləcə də fasiləsiz innovasiya prosesinin korporativ strategiyasının məzmunu sxem şəklində təklif edilmişdir;

- Emal sənayesi müəssisələrinin perspektiv inkişafının başlıca istiqamətləri işlənilmiş, məhsulun keyfiyyətinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr verilmişdir.

**İşin nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat işinin nəticələri Azərbaycanın emal sənayesi sahələrində məhsulun keyfiyyətinin, istehsalın diversifikasiyasının, restrukturizasiyasının həyata keçirilməsi üzrə sahə proqramlarının, məqsədli investisiya və innovasiya layihələrinin, müəssisələrdə keyfiyyətin idarə edilməsi, yaxşılaşdırılması istiqamətində təşkilati-texniki tədbirlərin, stimullaşdırma sistemlərinin işlənilməsində, müvafiq idarə orqanının təşkilində, eləcə də bu sahədə aparılan elmi-tədqiqat işlərində, ali və orta ixtisas məktəblərində “Keyfiyyətin idarə edilməsi”, “Standartlaşdırma”, “Metrologiya”, “Texniki-iqtisadi təhlil”, “Layihələrin idarə edilməsi” fənlərinin tədrisində istifadə oluna bilər.

**İşin aprobasiyası və nəticələrin tətbiqi.**

Tədqiqat işinin əsas nəzəri və metodoloji müddəaları, ayrı-ayrı aspektləri və nəticələri Beynəlxalq və Respublika elmi-praktiki konfranslarda və elmi seminarlarda müəllif tərəfindən məruzə edilmişdir. Dissertasiya işi ilə bağlı müəllifin 11 məqaləsi və tezisi, o cümlədən 9 xaricdə elmi jurnallarda və konfrans materiallarında dərc olunmuşdur.

Tədqiqatın nəticələri Qafqaz Universitetində müvafiq fənlərin tədris prosesində istifadə üçün qəbul edilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi** Dissertasiya işi 3 fəsildən, 8 yarımfəsildən, nəticə və təkliflərdən, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir, 171 səhifəni əhatə edərək, 23 cədvəl, 29 şəkil və sxem verilmişdir.

## Dissertasiya işinin mündəricatı

**Giriş.**

**Fəsil 1. Sənaye məhsullarinin keyfiyyətinin idarə edilməsinin nəzəri-metodoloji aspektləri**

1.1. Sənaye məhsullarının keyfiyyəti və onu xarakterizə edən amillər

1.2. Məhsulun keyfiyyətinin idarə edilməsinin metodoloji aspektləri

1.3. Sənaye məhsullarının keyfiyyətinin səmərəli idarə edilməsi üzrə beynəlxalq təcrübə

**Fəsil 2. Azərbaycanda sənaye məhsullarının keyfiyyətinin, idarə edilməsinin, istehsali və satişinin təşkilinin mövcud vəziyyətinin təhlili**

2.1. Sənaye məhsullarının keyfiyyətinin normativ-hüquqi və texniki təminatının mövcud vəziyyətinin qiymətləndirilməsi

2.2. İstehsalın texniki-texnoloji səviyyəsinin məhsulun keyfiyyətinə təsirinin təhlili

2.3. Emal sənayesi məhsullarının istehsalı və satışının qiymətləndirilməsi

**Fəsil 3. Azərbaycanin emal sənayesi məhsullarinin keyfiyyətinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi**

3.1. Keyfiyyətin idarə edilməsi metodlarının təkmilləşdirilməsi

3.2. Keyfiyyətin idarə edilməsi üzrə inteqrasiya olunan sistemin layihələndirilməsi

**Nəticə və təkliflər**

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

1. **Azərbaycanın emal sənayesi məhsullarının idarə edilməsi məsələləri ilk dəfədir ki, sistemli-məqsədli yanaşma, iqtisadi-statistik təhlil, sosioloji sorğu metodlarının sintezi əsasında tədqiq edilmiş, sənaye məhsulunun keyfiyyətinin kompleks şəkildə idarə edilməsi məsələlərinin təşkilati, iqtisadi-sosial və metodoloji aspektləri beynəlxalq təcrübə əsasında araşdırılmış və sistemləşdirilmişdir:**

Tədqiqat işində keyfiyyət məfhumunun formalaşmasının dövrləri, onun məcmusunun və təkamülünün tarixi xronoloji ardıcıllıqla sistemləşdirilmişdir. Artıq XX əsrin ortalarından başlayaraq inkişaf etmiş ölkələrdə ümumi keyfiyyətin idarə edilməsi (ÜKİE) sistemi formalaşmışdır ki, o da bir idarəetme tərzi olub, əvvəlkindən daha yaxşi səviyyəyə çatmaq məqsədini şərtləşdirir. Sənaye məhsulunun keyfiyyəti yenilik səviyyəsini, etibarlılığını, uzunömürlülüyünü, davamlılığını, texniki-iqtisadi cəhətdən sərfəliliyini, erqonomik, estetik, ekoloji və başqa istehlak xassələrini özündə tam əks etdirən, öz təyinatına görə istifadəsi zamanı ona ictimai isteshal münasibətləri sistemində qoyulmuş tələbatı ödəmək qabiliyyəti verən xassələrin məcmusudur.

Tədqiqatlar göstərir ki, məhsulların satışını ləngidən başlıca səbəb onların keyfiyyətinin beynəlxalq standartlara cavab verməməsidir. Ona görə də ölkədə texniki tənzimlənmə və standartlaşma məsələlərinə diqqətin

artırılması vacibdir. Bu məqsədlə işdə həyata keçiriləcək zəruri tədbirlərin təsnifatı işlənilmiş, ölkədə beynəlxalq, regional, sahə standartların işlənilməsi və onların İSO tipli standartlara uyğunlaşdırılması və bununla əlaqədar müəssisədə ixtiraçılıq və səmərələşdirmə işlərinin genişləndirilməsinə, təcrübə mübadiləsinin təşkil edilməsinə, keyfiyyətə daimi baxışların genişlənməsinə, keyfiyyət qruplarının yaradılmasına, məsulun keyfiyyətinin yüksəldilməsində işçilərin yaradıcı iştirakının mütərəqqi formalarının tətbiq edilməsinə, texnoloji, patent və lisenziya məlumatlarının mühafizəsinin təmin edilməsinə və s. ciddi diqqət yetirilməsinin vacibliyi qeyd edilmişdir.

Azərbaycanda keyfiyyətin idarə edilməsi probleminin həllində aşağıdakı perspektiv istiqamətlərin həyata keçirilməsi vacibdir:

- Ölkədə keyfiyyətin idarə edilməsinin ümumi proqramının reallaşdırılması mexanizminin və alətlərinin yaradılması;
- Keyfiyyətin idarə edilməsi üzrə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsinin mənimsənilməsi;
- İSO 9000-2000 və digər bu tipli beynəlxalq standartların emal sənayesinin bütün sahələrində tətbiqi üzrə tədbirlərin həyata keçirilməsi;
- Keyfiyyətin idarə edilməsi və innovasiya sahəsində yerli ali məktəblərdə və xaricdə yüksək ixtisaslı kadrların hazırlanması;
- Emal sənayesində istifadə edilən Texniki Şərtlərin (TŞ) dövlət, sahə və beynəlxalq standartlarla əvəz edilməsi;
- Keyfiyyət sahəsində zəruri hesab edilən sahə xarakterli normativ metodiki bazanın yeniləşdirilməsi;
- Keyfiyyət üzrə informasiya təminatının yaxşılaşdırılması.

2. **Sənaye məhsulunun keyfiyyətinin idarə edilməsinin yeni konsepsiyası işlənilmiş və həyata keçirilməsinin prinsipial sxemi təklif edilmişdir.**

Sənaye müəssisələrinin istehsal sisteminin (prosesinin, innovasiya layihələrinin tətbiqi, yeni məhsulun mənimsənilməsi, mövcud məhsulun modernləşdirilməsi və s.) yenidən qurulmasında, restrukturizasiyanın həyata keçirilməsində keyfiyyət menecmentinin səmərəli təşkilinə üstünlük verməli və o, müvafiq konsepsiyaya söylənməlidir (bax: sxem 1).

Araşdırmalar göstərir ki, Azərbaycanın çoxluq təşkil edən emal sənayesi müəssisələrində İSO-9004-2001 standartında nəzərdə tutulan prinsiplərə riayət olunmalıdır. Bunu nəzərə alaraq, işdə həmin prinsiplərin təsnifatı cədvəl 1-də təsvir olunmuşdur.

Sxem 1

KIEYK-nin müasir sisteminin konsepsiyasının prinsipial sxemi




Cədvəl 1

Keyfiyyət menecmenti sisteminin formalaşdırılmasının başlıca prinsipləri

| | | |
|---|---|---|
| İstehlakçılara yönümlülük | **Keyfiyyət menecmenti sisteminin prinsipləri** | Keyfiyyətə sistemli yanaşma |
| Rəhbərin liderliliyi | | Məhsulun keyfiyyətinin fasiləsiz yaxşılaşdırılması |
| İdarəetmə sisteminə işçilərin cəlb edilməsi | | Dəqiq faktlara əsaslanan qərarların qəbul edilməsi |
| Proses - yanaşma | | Tədarükçülərlə qarşılıqlı faydalı münasibətlərin formalaşdırılması |

Bizim fikrimizcə, qeyd edilən prinsiplər və mərhələlərin məntiqi nəticəsi keyfiyyət menecmenti sisteminin ümumiləşdirilmiş modelində öz əksini tapmalı və bu zaman sistemli və proses - yanaşma metodlarına üstünlük verilməlidir. Məhsul bazarında davamlı rəqabət mühitində mövqe tutmaq üçün keyfiyyət menecmenti sisteminin fasiləsiz yaxşılaşdırılması vacibdir.

Keyfiyyət menecmenti sistemini formalaşdırarkən - istehlakçı tələbatı, rəhbərin liderliyi, idarəetmə sisteminin cəlbediciliyi, resursların keyfiyyəti, istifadə edilən informasiyaların dürüstlüyü, keyfiyyət üzərində nəzarətin təşkili və s. məsələlər diqqət mərkəzində saxlanılmalıdır.

3. **Emal sənayesi məhsulunun keyfiyyət əlamətləri və göstəricilərinin təsnifatını özündə əks etdirən təkmilləşən sxem verilmişdir.**

Sənaye məhsullarının keyfiyyəti bir sıra sistem göstəricilərlə ölçülür. Onlar ümumiləşdirilmiş, fərdi və kompleks göstəricilər kimi təsnifləşir. Onların əlamətlərinin və təsnifatının formalaşmasında fikir ayrılığı mövcuddur. Sənaye müəssisələrinin spesifik xüsusiyyətlərindən asılı olaraq, onlar fərqlənirlər. Tədqiq edilən sahəyə uyğun həmin göstəricilər aşağıdakı kimi təqdim edilmişdir.

Cədvəl 2

Sənaye məhsullarının keyfiyyət əlamətləri və göstəricilərin təsnifatı

<table>
<tr><td colspan="5">Məhsulun təyinat göstəriciləri<br>məhsuldarlıq, manevretmə, həssaslıq, sürət, həcm və s.</td></tr>
<tr><td>Konkret bazarda təyinatı üzrə istifadə olunmasını xarakterizə edir</td><td>Təyinatı üzrə</td><td rowspan="4">Keyfiyyət göstəriciləri</td><td>Erqonomik</td><td>➢ Məhsulun ölçüsü<br>➢ Məhsulun forması<br>➢ Məhsulun rəngi<br>➢ Məhsulun elementlərinin qarşılıqlı yerləşməsi və s.</td></tr>
<tr><td>➢ Dayanıqlı işləməsi<br>➢ Təmirə yararlılığı<br>➢ Öz xüsusiyyətlərini saxlamaq qabiliyyəti<br>➢ Uzunömürlülüyü</td><td>Etibarlılıq</td><td>Estetiklik</td><td>➢ Xarici görünüşü<br>➢ Forması<br>➢ Harmoniyası<br>➢ Kompozisiyası<br>➢ Stili<br>➢ İstehlakçılar tərəfindən xarici görünüşünə görə cəlbediciliyi</td></tr>
<tr><td>➢ Layihələrarası vahidləşmə əmsalı<br>➢ Texnoloji proseslərin vahidləşməsi əmsalı<br>➢ Mexaniki işlənilən hissələrin xüsusi çəkisi<br>➢ Texnoloji proseslərin mütərəqqilik əmsalı<br>➢ Konstruksiyanın blokluluq əmsalı<br>➢ Resurslara qənaət əmsalları və s.</td><td>Texnolojilik</td><td>Standartlaşdırma və vahidləşdirmə</td><td>➢ Məhsul istehsal edən müəssisənin standartlar və digər normativ-texniki sənədlərlə təminatı səviyyəsi<br>➢ Standartlaşdırıcı sənədlərin müasirliyi<br>➢ Standartlaşdırma əmsalı<br>➢ Təşkiledici hissələrin təkrarlanması əmsalı<br>➢ Layihələrarası vahidləşmə əmsalı və s.</td></tr>
<tr><td>Məhsul istehsal edən müəssisənin (obyektin) havaya, torpağa, suya, təbiətə, insana və digər canlı aləmə vurduğu zərərin miqdarı ilə xarakterizə olunur</td><td>Ekolojilik</td><td>Patent-hüquqi</td><td>➢ Məhsulun patent-hüquqi səviyyəsi<br>➢ Patent mühafizəsi (qabiliyyətliliyi)<br>➢ Patent təmizliyi</td></tr>
</table>

Həmin sxem öz kompleksliliyi və sistemli tərtibatına görə yenidir, məhsulun keyfiyyətinin qiymətləndirilməsi və idarə edilməsinin vacib aləti kimi təcrübədə istifadə edilə bilər. Şəkildə əks etdirilən göstəricilərin bir hissəsi spesifikdir və yalnız müəyyən məhsul növü üçün xarakterikdir. Odur ki, ayrı-ayrı sənaye məhsulunun keyfiyyətə qiymət verilərkən, seçilmiş göstəricilərdən istifadə olunmalıdır.

Müxtəlif məhsulların keyfiyyət səviyyəsi qiymətləndirərkən keyfiyyət indekslərindən, növləşmə əmsallarından və qüsurluluq indekslərindən istifadə edilməsi daha təsirli təşkilati-texniki tədbirlərin işlənib hazırlanmasına imkan verir və zay məhsulun istehsalının qarşısını alır. Bu sahədə uğur qazanmaq üçün keyfiyyətə nəzarət sistemi düzgün təşkil edilməlidir. İşdə beynelxalq təcrübədə istifadə edilən nəzarət növlərinin və proseslərinin məzmunu əçıqlanmış, onlardan tədqiq edilən emal muəssisələrində istifadənin istiqamətləri gostərilmişdir.

4. **Sənaye məhsullarının kefiyyətinin səmərəli idarə edilməsi üzrə beynəlxalq təcrübə öyrənilib ümumiləşdirilmış, onların ayrı-ayrı elementlərinin Azərbaycanda tətbiqinin məqsədəuyğunluğu əsaslandırılmışdır.**

Bu zaman əsas diqqət sənaye məhsulunun keyfiyyətinin idarə edilməsi üzrə Azərbaycanda formalaşan sistemin məzmununa yönəldilmiş və onun nəticələri açıqlanmışdır. Qeyd edilir ki, müxtəlif obyektiv və subyektiv səbəblərdən hələ də bu ölkədə rəqabət qabiliyyətli, geniş çeşidli emal sənayesi məhsulları istehsal edilmir. Odur ki, bazarda rəqabət mübarizəsinə davam gətirmək və davamlı inkişafa nail olmaq üçün keyfiyyətin fasiləsiz yaxşılaşdirilmasi və rəqabətə davamlı məhsul istehsalına nail olmaq üçün müəssisənin butun fəaliyyəti innovasiya prosesinin intensivliyinə yonəldilməlidir.

Bu sahədə səmərəli nəticə əldə etmək üçün xətti yanaşmadan sistemli yanaşmaya keçid təmin edilməli və bu zaman əsas diqqət aşağıdakılara yonəldilməlidir:

- İdeyadan qısa müddətdə yeni məhsula keçid;
- Xətti idərəetmə sistemində beynəlxalq təcrübəyə əsaslanan bilikdən yeni növ məhsul istehsalına keçid;
- Ətraf mühitdə, təşkilatlanmada insanlar arasında qarşılıqlı, mürəkkəb əlaqədən perspektivli yeni məhsul istehsalı ideyasına keçid.

Keyfiyyətin idarə edilməsi üzrə sistemli yanaşmanın təmin edilməsi üçün aşağıdakıların icrası vacibdir:

- istehlak dəyərinin formalaşmasına dair keyfiyyətli qərarların qəbul edilməsi;

- bütün mövcud şübhələrdən kənarlaşaraq, işçilər tərəfindən verilmiş ən adi ideyanın mükafatlandırılması;
- "işıq sürəti ilə" yüksək keyfiyyətli məhsul istehsalına nail olmaq;
- rəqabət funksional əməkdaşlıq üçün maksimum münbit şəraitin yaradılması;
- baş verəcək dəyişiklikliyə qısa müddət ərzində əhəmiyyət vermək;
- innovasiya üzrə yeni biliklərin daim mənimsənilməsi;
- innovasiya prosesinin təşkilinin nəticələrinin diaqramlar, sxemlər və qrafiklər şəklində sənədləşdirilməsi və onların bütün iştirakçılara çatdırılması.

Keyfiyyətin idarə edilməsində sistemli yanaşmanın tərkib hissəsini fasiləsiz həyata keçiriləcək korporativ innovasiya strategiyasının işlənilməsi və həyata keçirilməsi təşkil edir. Bu zaman radikal inkişafa və yüksək məhsuldarlığa nail olmaq üçün fasiləsiz inkişaf təmin edilməlidir.

İşdə sənaye məhsullarının keyfiyyətinin səmərəli idarə edilməsi üzrə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin iş təcrübəsi öyrənilib sistemləşdirilmişdir. Əsas diqqət Yaponiyada keyfiyyətin kompleks idarə edilməsi sisteminin (KKİES) tətbiqi ilə əlaqədar KANBAN, TQM (Total quality management), eləcə də ABŞ-da "Dəqiq vaxtında" konsepsiyalarının tətbiqindən əldə edilən yuksək nəticələrə yönəldilmiş, bununla əlaqədar emal muəssisələrində keyfiyyət menecmentinə keçidin mərhələlərini özündə əks etdirən asılılıq göstərilmisdir. Eyni zamanda keyfiyyətin idarə edilməsi sisteminin Rusiyada tətbiqinin mərhələləri və təkamülü, bu sahədə Türkiyənin təcrübəsi şərh edilmişdir

5. **Azərbaycanda sənaye məhsullarının keyfiyyətinin normativ-hüquqi və texniki təminatının mövcud vəziyyətinə qiymət verilmiş, istehsalının texniki-texnoloji vəziyyətinin məhsulun keyfiyyətinə təsiri təhlil edilmiş, emal sənayesi məhsullarının istehsalı və satış səviyyəsi iqtisadi fəaliyyət sahələri üzrə təhlil edilib qiymətləndirilərək müvafiq ehtiyat imkanları aşkara çıxarılmışdır.**

Tədqiqatlarımızla müəyyən edilmişdir ki, Azərbaycanın emal sənayesi məhsulunun keyfiyyətinin təmin edilməsi üçün normativ-texniki baza formalaşmış, onların idarə edilməsi sisteminə ümumi rəhbərlik edən "Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi" mövcuddur və Azərbaycanın suverenliyi illərində həmin komitə tərəfindən 700-dən çox milli standartlar qəbul edilmişdir ki, onların da 40%-ə yaxını beynəlxalq standartlar (Avropa, Türkiyə, Rusiya) səviyyəsindədir. Adı çəkilən komitənin fondunda 21 minə yaxın standart saxlanılır. Təkcə

yeyinti məhsullarının istehsalında 170-dən çox milli standart və 8 QOST tətbiq edilir. Həmin standartların 49,4%-i süd məhsulları, 10,5%-i - yarımfabrikatlar, 7,0%-i - ət və balıq məhsulları, 6,4%-i - kartof, hər biri 5,8% olmaqla kolbasa və şirələr, 4,7% olmaqla - qənnadı və makaron məmulatlarına şamil edilmişdir. DÜST-lər isə - yalnız ət, süd, balıq və çay məhsullarında tətbiq edilir.

Son illər ərzində tikinti materialları istehsalında 60-dan çox standart istifadə edilir ki, onların da 35%-ni QOST-lar təşkil edir. Təkcə 2011-ci ildə ölkənin müxtəlif iqtisadi fəaliyyət sahələri üçün 77 standart işlənilmiş və təsdiq edilmişdir.

İSO (Beynəlxalq Standartlaşdırma Təşkilatı), EN (Avropa Birliyi), Kodeks Alimentarius, türk standartları və digər regional standartlar əsasında yeyinti sahəsi üzrə - 26; neft-kimya sahəsi üzrə - 15; elektrotexnika üzrə - 5; nəqliyyat üzrə - 2; tikinti üzrə - 5: ekologiya üzrə - 9 və digər sahələr üzrə 15 standart islənib hazırlanmış və dövlət qeydiyyatına alınmışdır. Bundan başqa emal müəssisələri üçün 200 peşə 100 - təlim və 200 - iş yerinin qiymətləndirilməsi üzrə standart işlənilmişdir. Azərbaycanda Milli standartlaşdırma sistemi formalaşmışdır. İşdə emal sənayesi sahələrinin mövcud texniki-texnoloji durumu, innavasiya aktivliyi onlara mane olan səbəblər geniş təhlil edilmiş, müvafiq ehtiyat imkanları aşkar edilmişdir. Onlardan səmərəli istifadə etmək üçün Azərbaycanın emal sənayesi sahələrində restrukturizasiyaya zəruri ehtiyac duyulur. Bu baxımdan restrukturizasiya üzrə beynəlxalq təcrübədə geniş istifadə edilən 7 C modelindən Azərbaycanın emal sənayesində iətifadə edilməsi yüksək nəticələr verə bilər.

Bunlarla yanaşı, işdə "«Azərneftkimyamaş» ASC- nin texiki-texnoloji durumu və innovasiya fəaliyyəti ətraflı təhlil edilmiş və bu sahədə ciddi dəyişikliyin aparılmasının zəruriliyi əsaslandırılmıştır. Hesab edirik ki, idxalda xüsusi çəkisi yüksək olan məhsulların Azərbaycanda istehsalını təşkil etmək üçün ölkənin maşınqayırma və elektrik avadanlıqları istehsalı sahələrində restrukturizasiya davam etdirilməli, diversifikasiya və innovasiya fəaliyyəti gücləndirilməlidir.

6. **Azərbaycanın emal sənayesi müəssisələrinin strateji inkişaf səviyyələri, onların restrukturizasiyasının vacibliyini müəyyən edən iqtisadi və təşkilati-texniki amillərin xarakteristikası, biznes fəaliyyətinin dayanıqlı inkişaf, eləcə də fasiləsiz innovasiya prosesinin korporativ strategiyasının məzmunu sxem şəklində təklif edilmişdir.**

Bazar iqtisadiyyatının tələbləri və rəqabət mübarizəsi çərçivəsində bütün dövlət, qeyri-dövlət, hətta ictimai təşkilatlar məhsulun (işin,

xidmətin) keyfiyyətini yaxşılaşdırmaq üçün əlavə iqtisadi stimullar tətbiq edirlər. Onun ən çox yayılmış sistemi keyfiyyət üzrə müxtəlif mükafatların tətbiqidir. Bu baxımdan hələ keçən əsrin 90-ci illərində ABŞ-da geniş tətbiq edilən E.Deminq mükafatıdır.

E.Deminq mükafatı Yaponiyada keyfiyyətin yaxşılaşdırılması istiqamətində əvəzsiz rol oynamışdır. Odur ki, texniki səviyyəsi və innovasiya aktivliyi hələ ki, aşaği olan Azərbaycanın maşınqayırma, elektrotexnika, yüngül sənaye sahələrində E.Deminq prinsiplərindən geniş istifadə edilməlidir. Onun tətbiqi müəssisədə müasir təşkilati və sosial-psixoloji elementləri ozündə əks etdirən, yüksək istehsalat mədəniyyətinə təminat yarada bilən keyfiyyətin idarə edilməsi sisteminin tətbiqini təkidlə tələb edir. Bizim fikrimizcə, işçilərin birbaşa stimullaşdırılması üçün emal müəssisələrində keyfiyyətin stimullaşdırılmasının mövcud sisteminin tərkibində əsaslı dəyişiklik aparılmalı və stimullaşdırmanın təsirlilik dərəcəsinə nəzarət gücləndirilməlidir. Həmin istiqamətlər nəzərə alınmaqla stimullaşdırmanın nəticələrinin planlaşdırılması təşkil edilməli, motivləşmə kompleksi formalaşdırılmalı və onlar mükafatlandırma sistemlərinə daxil edilməlidir. Bütün hallarda qeyd edilən istiqamətlər və elementlər arasında üzvi əlaqələrin yaradılması vacibdir.

Digər tərəfdən, emal müəssisələrində keyfiyyətin idarə edilməsinin texniki-texnoloji metodlarından, keyfiyyətə nəzarət sistemlərindən istifadə müsbət nəticələr əldə etməyə imkan verəcəkdir. İşdə həmin metodların prinsipial sxemləri təklif edilmişdir.

Fikrimizcə, emal müəssisələrində məhsulun keyfiyyətinə nəzarət sisteminin işlək olması üçün səlahiyyətləri özündə cəmləşdirən idarə orqanının (xidmətinin) yaradılması vacibdir. Bu məqsədlə adi çəkilən idarə orqanının nümunəvi strukturu təklif edilmisdir .

Keyfiyyət üzrə səriştəli mütəxəssislər haqlı olaraq qeyd edirlər ki, keyfiyyət üzrə həll edilə bilən problemlərin orta hesabla 95%-i bilavasitə insanla, onun təfəkkürü və motivləşməsi ilə əlaqədardır. Məhz bu baxımdan emal sənayesi müəssisələrində işçilərin əmək haqlarının artırılması ilə yanaşı, onların sosial və psixoloji təminatları daim ön planda saxlanılmalıdır.

Araşdırmalar göstərir ki, Azərbaycanın emal sənayesi müəssisələrində (o cümlədən maşın, mexanizm və elektrik avadanlıqları istehsalında) istehsalın texnoloji və keyfiyyət səviyyəsi qərb ölkələrinin firmalarının, eləcə de Rusiya Federasiyasının müəssisələrinin eyni adlı səviyyəsindən xeyli aşağıdır.

Azərbaycanın emal sənayesində isə həmin sahədə xeyli geriliyin

olduğu müşahidə edilir. Burada əsas çatışmazlıq - ƏİF-in yüksək dərəcədə aşınması, istehsal güclərindən qismən istifadə, ixrac məhsullarının xüsusi çəkisinin aşağı olması. SC-yə çevrilən müəssisələrdə investisiya qıtlığı, zəif diversifikaiya və innovasiya fəaliyyəti, qeyri-təkmil marketinq sisteminin mövcudluğu, anbarda hazır məhsul qalığının artması, sahələrə dövlət dəstəyinin aşağı olması və s. ilə əlaqədardır. Həmin nöqsanların aradan qaldırılması üçün tədqiq edilən emal müəssisələrinin əsaslı şəkildə restrukturizasiyasına ehtiyac duyulur. Onun vacibliyini müəyyən edən iqtisadi və təşkilati-texniki amillərin xarakteristikası tərəfimizdən beynəlxalq təcrübəyə əsaslanaraq tərtib edilən 2 saylı sxemdə öz əksini tapmışdır.

Sxem 2

Emal sənayesi müəssisələrinin restrukturizasiyasının vacibliyini müəyyən edən iqtisadi və təşkilati-texniki amillərin xarakteristikası

**Emal müəssisələrinin təşkilati-texniki xarakteristikası**

Fiziki və mənəvi cəhətdən aşınmış böyük sayda dar ixtisaslaşan istehsalatlar

Fasiləli və fasiləsiz texnoloji proseslər

Elmtutumlu məhsullar

Məhsulun ixrac yönümlü satışa meylliliyi

⇓

Müəssisələrin iqtisadi dayanıqlığı aşağıdakı amillərdən asılıdır:

- məhsulun çeşidinin və keyfiyyətinin, tələb və təklifin səviyyəsinin təsiri;
- innovasiya məhsullarının xüsusi çəkisinin aşağı olması;
- müəssisədə beynəlxalq standartların ləng tətbiq edilməsi;
- diversifikasiya prosesinin ləng həyata keçirilməsi;
- hazır məhsula olan dünya qiymətinin səviyyəsi;
- məhsul vahidinə sərf edilən xammal və enerji xərclərinin xüsusi çəkisinin yüksək olması;
- kənardan alınan (idxal edilən) xammalların bazar qiymətinin səviyyəsi;
- inflyasiya səviyyəsi ilə indeksləşən yanacaq, elektrik və istilik enerjisinə şamil edilən tarif dərəcəsi;
- avadanlıqların təmir müddəti və müasirliyi;
- elektrik təchizatının sabitliyi;
- ətraf mühitin qorunması və çirklənməyə görə tarif ödənişi üzrə dövlət normativləri.

Emal müəssisələrinin iqtisadi xüsusiyyətləri

Ölkənin emal sənəyesi müəssisələrinin perspektiv inkişafı biznes-

fəaliyyətinin dayanıqlı strategiyasına əsaslanmalıdır. Bu zaman, balanslaşan biznes sisteminin yaradılması, diversifikasıya və rəqabət strategiyasının işlənilməsi və həyata keçiriiməsi, eləcə də sahədə mövcud idarəetmə sisteminin əsaslı şəkildə təkmilləşdirilməsi təmin edilməlidir.

Perspektiv inkişafa nail olmaq üçün sinerji təşkiletmə dəyərlərin zəncirvari idarə edilməsi, lokal və qlobal layihələrin işlənilməsi və həyata keçirilməsi, korporativ vençur strategiyasının formalaşması və icrasi, elmi tədqiqatlarının nəticələrinin fasiləsiz istehsalata tətbiqi, müştərək fəaliyyətin genişləndiriməsinə üstünlük verilməlidir. Azərbaycanın emal sənayesinə daxil olan sahələrin spesifik xüsusiyyətləri çərçivəsində müvafiq sənaye siyasətinin həyata keçirilməsini tövsiyə edirlər.

7. **Emal sənayesi müəssisələrində məhsulun keyfiyyətinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işlənilmişdir.**

Azərbaycanın emal sənayesi müəssisələrində formalaşan investisya-innosiya siyasəti korporativ strategiyanın icrası fasiləsiz innovasiya prosesinin yeni təkamül yolu ilə radikal inkişafına, sinerji yanaşmaya, məhsuldarlığın artmasına söykənməlidir. Əldə edilən nəticələr isə - inteqral səmərənin yüksəlməsinə təminat yaratmalıdır. İşdə adı çəkilən strategiyaların məzmunu sxem şəklində təklif edilmişdir.

KİE sistemi çərçivəsində ayrı-ayrı məhsulların keyfiyyət parametrlərini, resurs təminatını, həcmini, qalığını və s. özündə əks etdirən informasiyaların bankının yaradılması sisteminin fəaliyyətinin qiymətləndirilməsi üçün vacib şərtlərdəndir.

Bu sahədə uğur qzanmaq üçün Azərbaycanın emal sənayesi müəssisələrində rəqabət qabiliyyətinin yüksəldilməsi, müəssisələrin restrukturizasiyası, onların mövcud idarəetmə sisteminin əsaslı şəkildə təkmilləşdirilməsi və inteqrasiya prosesinin dərinləşdirilməsi istiqamətində kompleks təşkilati-iqtisadi, texniki-texnoloji xarakterli tədbirlər həyata keçirilməlidir. Həmin tədbirlərin qeyd edilən istiqamətlər üzrə aşağıdakı kimi təsnifləşdirilmişdir:

***1. Rəqabət qabiliyyətinin yüksəldilməsi***

1.1 Mövcud avadanlıqların modernləşdirilməsi və yenilərinin işlənilməsi;

1.2 Yüksək keyfiyyətli məhsullar üzrə qiymət rəqabətinin aparılması

1.3 Nou-hau üzrə xarici analoqlardan istifadə olunması

1.4 Müəssisələrdə innovasiya və keyfiyyət menecmentinin geniş tətbiq edilməsi;

1.5 İri tədarükçülər və istehlakçılar arasında sıx əlaqələrin yaradılması;

1.6 Logistika sisteminin təkmilləşdirilməsi

**2. *Müəssisələrin restrukturizasiyası***

2.1 İstehsalın idarə edilməsinin təşkilinin təkmilləşdirilməsi;

2.2 Əmlakın restrukturizasiyası və funksional dəyişikliyin təmin edilməsi;

2.3 İstehsalın təyinatının tədricən dəyişdirilməsi;

2.4 Real sifarişlər portfelinin formalaşdırılması;

2.5 Maliyyə restrukturizasiyası;

2.6 Yeni avadanlıqlara və əmək resurslarına daha çox investisiya yönəldilməsi;

2.7 Mülkiyyət formasının restrukturizasiyası

**3. İdarəetmə sisteminin təkmilləşdirilməsi və inteqrasiyasının dərinləşdirilməsi**

3.1 Emal sənayesinin ayrı-ayrı sahələri üzrə holdinq kompaniyalarının və maliyyə-sənaye qruplarının yaradılması;

3.2 Maşın, mexanizm və elektrik avadanlıqlarının sertifikatlaşdırılması və beynəlxalq standartlara uyğunlaşdırılması;

3.3 Səhmdar Cəmiyyətinə çevrilən emal müəssisələrinin bazasında müştərək müəssisələrin yaradılması;

3.4 Mövcud maşınqayırma müəssisələrində qeyri-neft sektoru üçün avadanlıqların hazırlanması;

3.5 Holdinqlərin və MM-lərin köməyi ilə beynəlxalq bazara çıxışın təmin edilməsi

Fikrimizcə, göstərilən tədbirlərin Azərbaycanın emal müəssisələrində tətbiq edilməsi bütünlükdə sahələrin və ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsinə təminat yaratmış olacaqdır.

Müəssisələrdə yeni və radikal dəyişikliyə təminat yarada bilən biznes modelinin işlənilməsi, həyata keçirilməsi. Emal sənayesinin aparıcı sahəsi hesab edilən, istehsal vasitələri istehsalı ilə məşğul olan neft maşınqayırma sənayesində restrukturizasiyanın davam etdirilməsi, innovasiya fəaliyyətinin genişləndirilməsi. Bu sahədə iqtisadi və beynəlxalq uğur qazanmaq üçün «Azneftkimyamaş» ASC-nin bazasında sənaye-maliyyə qrupunun (SMQ) yaradılması məqsədəuyğun olardı. Alternativ variant kimi həmin ASC-nin İstehsalat Birliyinə (İB), onun törəmə müəssisələrinin isə – müştərək müəssisələrə çevrilərək onların məhsullarının əsas alıcısı olan ARDNŞ-nin tabeliyinə verilməsi sahənin dayanıqlı inkişafına, maliyyə təminatının yaxşılaşmasına, rəqabət qabiliyyətinin yüksəldilməsinə imkan vermiş olardı.

**Dissertasiya işinin məzmunu aşağıdakı işlərdə öz əksini tapmıştır:**

1. Baytak S.H. Endüstri ürünlerinde toplam kalite yönetimi // Türkmenistanın ilimler Akademiyasının ilim neşiryatı. Halkara 'Türkmen-Türk üniversitesi "'Türkmen İlmi Galkınış ve Halkara Gatnaşıklar Yolunda 5-2010". Aşkabat, 2010. s. 208-215

2. Baytak S.H. Sanayi ürünlerinde kalite güvence sistemlerinin toplam kalite yönetimindeki yeri // Türkmenistanın ilimler Akademiyasının ilim neşiryatı Halkara Türkmen-Türk üniversitesi "Türkmen İlmi Galkınış ve Halkara Gatnaşıklar Yolunda 2011-1"', Aşkabat, 2011. s. 106-211

3. Baytak S.H. Məhsulun keyfiyyətinin idarə edilməsinin təşkilati-iqtisadi aspektləri // AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. № 2, Bakı, Elm, 2012, s. 109-113

4. Əliyev T.N., Baytak S.H. Sənaye məhsulunun keyfiyyətinin idarə edilməsi üzrə beynəlxalq təcrübə //AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. № 3, Bakı, Elm, 2012, s. 20-25

5. Baytak S.H. Sənaye məhsullarını rəqabət qabiliyyətinin təmin edilməsinin keyfiyyət aspektləri // AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. № 4. Bakı, Elm, 2012, s. 157-163

6. Baytak S.H. The Affect Of Culture And Climate On The Total Quality Management With An Example On Educational technology / Education, Sport And Tourism In The Prosperous Epoch Of The Powerful State". Abstracts of the international scientific- methodological conference, 5-7 November. 2012, Ashgabat, s. 389-391

8. Baytak S.H. The Effect Of Culture And Climate On The Total Quality Management In The Transitional Economy, In The Model Of Petrol Industry. / Türkmenistanın ilimler Akademiyasının ilim nesiryatı Halkara Türkmen-Türk universitesi, "Interdisciplinary Trends In Science And Technology" - Asgabat: Ylym, 2013.səh. 64-70

9. Baytak S.H. Toplam kaliteyi Etkileyen Faktorlerden, Motivasyonun Etksi / Turkmenistan Bilim Ministrligi & Ilalkara Türkmen-Türk Universitesi, Turkmenistamn Dowlet Baydagynyn Bayramy mynasybetli Geciriliyen, “Parlak Yasyl Baydagymyz Yaşlary Ruhlandyryjy Guycdiif” adh yas alımlarynyn ylmy -amaly maslahat 13.02.2013, Aşkabat

10. Байтак С.Г. Состояние внедрения стандартов качества на промышленных предприятиях Азербайджана // Украинский журнал. «ЕKОНОМİСТ» № 9, Киев, 2012, с. 17-19.

11. Baytak S.H. Emal müəssisələrində keyfiyyətin idarə edilməsi sisteminin layihələndirilməsi // II Kooporasiya elmi-praktiki jurnal №2 (37) Bakı “AKU”, 2015, s. 69-74

**Седат Гасан оглы Байтак**

## Совершенствование механизма управления качеством промышленной продукции


## РЕЗЮМЕ

Диссертация объемом в 171 страниц, состоит из введения, трех глав, выводов и рекомендаций, списки использованной литературы.

В первой главе **«Теоретико-методологические аспекты управления качеством промышленной продукции»** исследуются теоретические-методологические аспекты управления качеством промышленной продукции и обобщен зарубежный опыт по ее рациональному управлению.

Во второй главе **«Анализ современного состояния производство и реализации и управления качеством промышленной продукции Азербайджана»** на основе многолетних статистических, отчетных и учетных данных материалов анкетного опроса, анализируется и оценивается технико-технологическое состояние производства и его влияние на качество продукции, ее техническое и нормативно-правовое обеспечение, а также производство и реализация продукции обрабатывающей промышленности.

В третьей главе **«Совершенствование механизма управления качеством промышленной продукции обрабатывающей промышленности Азербайджан»** на основе изучения и обобщения опыта зарубежных фирм указывается пути совершенствования методов управления качеством, а также проектирования системы их интеграции по управлению качеством.

В заключении обобщены результаты исследования и предложены соответствующие рекомендации.

**Sedat Hasan oglu Baytak**

## Development of the mechanism of the industrial product quality control

## SUMMARY

Thesis volume of 171 pages, consists of an introduction, two chapters, conclusions and recommendations, list of references.

In the first chapter **"Theoretical and methodological aspects of the quality of industrial products"** explores theoretical and methodological aspects of quality control of industrial products and generalized foreign experience in its rational management.

In the second chapter **"Analysis of the current state of the production and implementation of quality management and industrial production of Azerbaijan"** on the basis of long-term statistics, reporting and accounting of these materials questionnaire, analyzed and evaluated the technical and technological state of production and its impact on the quality of products, its technical and regulatory legal support, as well as the production and sale of manufacturing industry.

In the third chapter, **"Improving the mechanism for quality control of industrial products manufacturing Azerbaijan"** based on the study and generalization of experience of foreign firms indicated ways to improve the methods of quality management, as well as system design integration of quality management.

In conclusion summarizes the results of research and offers recommendations.

AMEA-nın mətbəəsində çap olunub
Tiraj-100